# Professor İrma Ratiani:
# «Elm azad düşüncə, azad fantaziyalar və çox maraqlı nəticələr dünyasıdır»

**Məlum olduğu kimi, aprelin 10-da AMEA Mərkəzi Elmi Kitabxanasında Elm Gününə həsr olunmuş təntənəli tədbir keçirilib. Tədbirdə Gürcüstandan gələn Şota Rustaveli adına Gürcü Ədəbiyyatı İnstitutunun direktoru professor İrma Ratiani və həmin müəssisənin direktor müavini professor Maka Elbakidze də iştirak ediblər. Fürsətdən istifadə edərək, professor İrma Ratiani ilə bir az söhbət etdik.**



**- Salam, İrma xanım. Sizi yenidən Azərbaycanda görməyimizə şadıq. Bizim Elmlər Akademiyası qonşu Gürcüstandan necə görünür?**

- Azərbaycan Milli Elmlər Akademiyası Gürcüstandan olduqca layiqli səviyyədə görünür. İlk növbədə çox zəngin ənənələri olan Elmlər Akademiyası kimi. Həmçinin qeyd etmək lazımdır ki, AMEA-ya gözəl alim və insan akademik İsa Həbibbəyli rəhbərlik edir. Bu yaxınlarda o, Gürcüstan Milli Elmlər Akademiyasının fəxri üzvü seçilib.

**- Biz də göstərilən etimada görə gürcü həmkarlarımıza təşəkkürümüzü bildiririk. Rəhbərlik etdiyiniz institut AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə hansı sahələrdə əməkdaşlıq edir?**

- Əməkdaşlıq 10 ilə yaxındır ki, davam edir. Qeyd etmək lazımdır ki, olduqca səmərəli əməkdaşlıqdır. Artıq ikinci müştərək elmi layihənin həyata keçirilməsinə başlanılıb. Birinci layihə "Şota Rustaveli və Nizami Gəncəvi. Mədəniyyətlərarası əlaqələr" adlanıb. Həmin layihə iki dahi şairin fəlsəfi, etik, estetik görüşlərini əhatə edib. Sevindirici haldır ki, kitab nüfuzlu Cambridge Scholars Publishing Nəşriyyat evi tərəfindən ingilis dilində nəşr olunub. Hesab edirəm ki, bu nəşr birgə tədqiqatlarımızın parlaq nəticəsidir.

Hazırda biz bu layihənin "Şota Rustaveli və Nizami Gəncəvi müasir ədəbiyyatda və incəsənətdə" adlı ikinci hissəsi üzərində çalışırıq. Bu da olduqca maraqlı interdissiplinar layihədir. Əminəm ki, tədqiqatlar zamanı mühüm nəticələr əldə edəcəyik.

**- Gələcək planlarınız haqqında danışardınız. Bundan sonrakı əməkdaşlıq zamanı hansı sahələri əhatə etmək istəyirsiniz?**

- Gürcü Ədəbiyyatı İnstitutunun direktoru kimi, məni institutumuzun strateji inkişafı maraqlandırır. Bizim üçün regionda strateji tərəfdaş böyük əhəmiyyət kəsb edir ki, bu tərəfdaş da AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutudur. İstərdim ki, folklor və rəqəmsal ədəbiyyat sahəsində əməkdaşlığımızı inkişaf etdirək. İnstitutumuzda Rəqəmsal Ədəbiyyat Mərkəzi açılıb. Bundan öncə dilçilik korpusları yaradılmışdı, bu isə Gürcüstanın ilk Rəqəmsal Ədəbiyyat Mərkəzidir. Quruma gənc alim, elmlər doktoru rəhbərlik edir. Qısa müddət ərzində, cəmi il yarıma mərkəz institutumuza iki iri qrant qazandırıb. Əminəm ki, mərkəzin böyük gələcəyi var.

**- Söhbətimizin gedişatında belə bir sual yarandı: Rəqəmsal Ədəbiyyat Mərkəzinin məqsədi nədir? Fəaliyyəti hansı sahələri əhatə edir?**

- Mərkəzin məqsədi ədəbi mətnlərin, gürcü ədəbiyyatı nümunələrinin korpuslarını yaratmaqdır. Ən əsası isə bu mətnlərin rəqəmsal ədəbiyyatşünaslıq metodları vasitəsilə tədqiqidir. Bu, çox geniş istiqamətdir. Azərbaycanlı həmkarlarımızı maraqlandırsa, mən və mənim həmkarlarım təcrübəmizlə bölüşə, bu mövzuda seminarlar keçirə bilərik.

**- Azərbaycanın elmi ictimaiyyətinə arzularınız.**

- Sizə firavanlıq, böyük elmi nailiyyətlər arzulayıram. Mənim üçün elm azad düşüncə, azad fantaziyalar və çox maraqlı nəticələr dünyasıdır. Məhz buna görə elmdəyəm. Və arzum budur ki, Azərbaycanın elm sahəsinə çoxsaylı gənclər gəlsin.

**- Bizə vaxt ayırdığınız üçün sizə təşəkkür edirik.**

**Müsahibəni apardı: Nəzmin CƏFƏROVA**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru**